

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

9 aprel 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 13 (3776)


# Strateji qonşuluq



## Azərbaycan ilə Gürcüstan regionun vacib aktorlarıdır

***Prezident İlham Əliyev :*** *"Bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim".*

***Baş nazir İrakli Kobaxidze :*** *"Azərbaycan Gürcüstanın ən iri ticarət tərəfdaşlarından biri kimi qalır və iqtisadi münasibətlərin daha da dərinləşəcəyini gözləyirik".*

Aprelin 6-da Tbilisi şəhərində keçirilən yüksək səviyyəli görüşlər Azərbaycan-Gürcüstan münasibətlərinin strateji mahiyyətini bir daha nümayiş etdirdi. Prezident İlham Əliyevin rəsmi qarşılanma mərasimi ilə başlayan səfəri regionun gələcək geosiyasi konturlarına təsir edə biləcək mesajlarla yadda qaldı.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ilə keçirilən təkbətək görüşdə münasibətlərin əsas sütunları açıq şəkildə ifadə olundu. Dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq anlayışları konkret əməkdaşlıq sahələri ilə zəngin məzmun qazandı. Siyasi dialoqdan tutmuş energetikaya, nəqliyyatdan sərmayələrə qədər geniş spektrdə inkişaf dinamikası xüsusi vurğulandı.

Görüşün diqqət çəkən məqamlarından biri Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin xüsusi qeyd edilməsi oldu. Bu yanaşma göstərir ki, Bakı və Tbilisi artıq bütöv regionun gələcəyini düşünən aktorlar kimi çıxış edirlər.

Prezident İlham Əliyev və Baş nazir İrakli Kobaxidzenin mətbuata bəyanatları Azərbaycan-Gürcüstan münasibətlərinin real ölçüsünü konkret rəqəmlərlə ifadə etdi.

Dövlətimizin başçısı çıxışında iqtisadi dinamikaya toxunub: "Keçən il bizim ticarət dövriyyəmiz 800 milyon dollardan çox olmuşdur və bu ilin ilk rübündə yenə də artım kifayət qədər yüksəkdir. Belə gedərsə, biz bəlkə də ilin sonuna qədər bir milyard rəqəminə də çatacağıq",- deyə Prezident vurğulayıb.

İnvestisiya sahəsində səsləndirilən rəqəmlər isə daha geniş mənzərə yaradır. Dövlətimizin başçısı vurğulayıb ki, bu günə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulub. Enerji sahəsində də Gürcüstanla əməkdaşlıq regionun geosiyasi əhəmiyyətini daha da artırır. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir. Ancaq bu ixrac yenə də Gürcüstandan başlayır və Gürcüstan burada birinci ölkədir.

Qonşu ölkənin Baş naziri də Azərbaycanın Gürcüstanın ən iri ticarət tərəfdaşlarından biri olduğunu və iqtisadi münasibətlərin daha da dərinləşəcəyini gözlədiklərini vurğulayıb.

Bəyanatlar göstərdi ki, iki ölkə iqtisadi tərəfdaşlıqdan regional güc mərkəzinə çevrilmək mərhələsinə keçid edir. Bu göstəricilər fonunda verilən mesaj da aydındır. İki ölkə yalnız mövcud nailiyyətlərlə kifayətlənmək niyyətində deyil.

Qarşıdakı mərhələdə həm ticarət dövriyyəsinin artırılması, həm yeni investisiya layihələrinin reallaşdırılması, həm də nəqliyyat və enerji dəhlizlərinin genişləndirilməsi əsas prioritetlər kimi müəyyənləşdirilir.

Tbilisidən səslənən rəqəmlər də bu planların real iqtisadi baza üzərində qurulduğunu açıq şəkildə təsdiqləyir.

# "Türk dünyası bizim ailəmizdir"

## Bu ailənin qurulmasında Azərbaycan Prezidentinin xüsusi rolu var

Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin baş nazirlərinin Bakıda keçirilən ikinci görüşü son dövrün mühüm siyasi və iqtisadi hadisələrindən biri oldu. Xüsusi ilə Prezident İlham Əliyevin bu təşkilata yanaşması göstərir ki, TDT çərçivəsində əməkdaşlıq artıq davamlı və məqsədyönlü xarakter alıb. Dövlət başçısının "türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur" fikri təşkilatın ideoloji əsasını müəyyənləşdirən əsas tezislərdən biri kimi diqqət çəkir.

Görüşdə əsas müzakirə mövzuları iqtisadi əməkdaşlıq, nəqliyyat-logistika imkanları və enerji sahəsində koordinasiyanın gücləndirilməsi oldu. Türk dövlətləri Avropa ilə Asiyanı birləşdirən strateji coğrafiyada yerləşir. Bu üstünlükdən maksimum istifadə olunması üçün nəqliyyat dəhlizlərinin inkişafı əsas prioritetlərdən biri kimi çıxış edir. Ona görə Trans-Xəzər marşrutu və Orta dəhliz üzərindən daşımaların artırılması, logistika infrastrukturunun müasirləşdirilməsi və gömrük prosedurlarının sadələşdirilməsi məsələləri geniş müzakirə edilib. Enerji əməkdaşlığı da görüşün əsas istiqamətlərindən biri olub.

TDT-yə üzv ölkələrin əksəriyyəti zəngin enerji ehtiyatlarına da malikdir. Bu resursların koordinasiyalı şəkildə istifadəsi, enerji marşrutlarının şaxələndirilməsi və yeni layihələrin həyata keçirilməsi təşkilatın qlobal enerji xəritəsində rolunu gücləndirir. Eyni zamanda yaşıl enerji və enerji səmərəliliyi kimi sahələrin gündəmə gətirilməsi göstərir ki, təşkilat yalnız mövcud resurslara deyil, gələcəyin enerji modellərinə də fokuslanır.

Görüşün yekununda qəbul edilən sənədlər və səslənən fikirlər TDT-nin inkişafında yeni mərhələ deməkdir. "Naxçıvan sazişi"nə istinad edilmə, "Türk Dünyasına Baxış-2040" sənədinin vurğulanması bunu aydın göstərir.

Bütün bu proseslər fonunda Azərbaycanın rolu xüsusi olaraq seçilir. Bakı yalnız ev sahibi kimi deyil, həm də təşəbbüskar və istiqamətverici oyunçu kimi çıxış edir. Enerji layihələri, nəqliyyat dəhlizləri və regional diplomatiya sahəsində əldə olunan uğurlar Azərbaycanın TDT daxilində aparıcı mövqeyini daha da möhkəmləndirir.

# Azərbaycana minnətdarlıq edilir

## Humanitar yardım davam edəcək

Aprelin 2-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Məsud Pezeşkian Azərbaycanın İrana göstərdiyi humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Prezident İlham Əliyev ölkəmizin İrana göstərdiyi humanitar yardımın davam edəcəyini deyib, yaxın zamanlarda növbəti humanitar yardımın göndəriləcəyini vurğulayıb.

İranda vəziyyətin gərginləşməsindən narahatlığını ifadə edən dövlətimizin başçısı həlak olan İran vətəndaşlarına Allahdan rəhmət diləyib, qarşıdurmanın tez bir zamanda sona çatmasını arzuladığını bildirib. Telefon söhbəti zamanı regionda sülhün tezliklə əldə olunmasının zəruriliyi vurğulanıb.

# Qardaşlıq əlaqələri genişlənir

## Prezident Türk dövlətlərinin nümayəndələrini qəbul edib

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının görüşünün iştirakçılarını qəbul edib.

Dövlət başçısı çıxışında təşkilat çərçivəsində birliyin və həmrəyliyin vacibliyini vurğulayaraq, əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini qeyd edib. Görüşdə iqtisadi əlaqələrin inkişafı, qarşılıqlı sərmayə qoyuluşu, həmçinin nəqliyyat və logistika layihələri, o cümlədən Orta Dəhliz və Zəngəzur dəhlizi müzakirə olunub.

Eyni zamanda, Qarabağın bərpasında qardaş ölkələrin dəstəyi yüksək qiymətləndirilib və birgə layihələrin uğurla davam etdiyi bildirilib. Qeyd olunub ki, üzv ölkələr beynəlxalq platformalarda da bir-birini dəstəkləyir və ortaq mövqedən çıxış edirlər.

Prezident İlham Əliyev görüşün təşkilatın inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

# Mədəni əməkdaşlıq yeni mərhələdə

## Birinci xanım Tbilisidə muzeylərlə tanış olub

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva aprelin 6-da Tbilisidə yerləşən Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi və Gürcüstan Milli Muzeyi ilə tanış olub. Məlumat verilib ki, Mirzə Fətəli Axundzadə adına muzey Azərbaycan mədəniyyətinin Gürcüstanda qorunması və təbliği baxımından mühüm əhəmiyyət daşıyır. Burada milli musiqi alətləri, xalçalar və Mirzə Fətəli Axundzadənin həyatına dair eksponatlar nümayiş olunur.

Daha sonra Mehriban Əliyeva Gürcüstan Milli Muzeyində olub. Səfər çərçivəsində Gürcüstan Milli Muzeyinə "Azərxalça" ASC-nin istehsalı olan, Azərbaycan xalça sənətinin müasir interpretasiyasını əks etdirən kolleksiya hədiyyə edilib.


Etimadın yolu şəffaflıqdan keçir.........2

"Anamı yurduna qaytaracam"............3

Yeniyetmələri birgə qoruyaq..............3

Dələduzluğun yeni üsulları.................4

# Respublika Xəbərləri

### Bibiheybət yolunda hərəkət məhdudlaşdırılır

Aramsız yağan yağışlar nəticəsində Səbail rayonu, Bibiheybət ərazisində torpaq sürüşməsi təhlükəsi yaranıb. Yaranmış vəziyyət nəzərə alınaraq hərəkət iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə dənizkənarı magistralında nəqliyyat vasitələrinin hərəkəti müvəqqəti olaraq qismən məhdudlaşdırılıb. Sürücülərdən alternativ olaraq "20-ci sahə" adlanan ərazi vasitəsilə hərəkət etməklə yeni Salyan şossesindən istifadə etmələri xahiş olunur. Vəziyyətin stabilləşdirilməsi və yolun təhlükəsiz istismarı üçün müvafiq tədbirlər görülür.

### İrana humanitar yardım göndərildi

Azərbaycandan İrana növbəti humanitar yardım göndərilib. Yardım 10 yük avtomobili ilə Astara sərhəd-keçid məntəqəsindən keçərək ünvana çatdırılıb. Humanitar yardım Azərbaycan və İran prezidentləri arasında aparılan danışıqlara uyğun olaraq təşkil edilib və qonşu ölkənin ehtiyaclarının qarşılanmasına yönəlib.

### Birgə hərbi təlim keçirildi

Türkiyə və Azərbaycan hərbçilərinin iştirakı ilə Qarsda "Sarsılmaz Qardaşlıq - 2026" təlimi keçirilib. Təlim simulyasiya mərkəzində təşkil olunub və uğurla başa çatıb. Bu cür tədbirlər iki ölkə arasında hərbi əməkdaşlığın gücləndirilməsinə xidmət edir.

### Mina təhlükəsi müzakirə olundu

Bakıda mina təhlükəsinə həsr olunmuş ictimai müzakirə keçirilib. Tədbirdə mina probleminin yaratdığı risklər, qurbanların hüquqları və maarifləndirmə məsələləri müzakirə edilib. Qeyd olunub ki, mina təhlükəsi ilə mübarizədə dövlət və vətəndaş cəmiyyəti əməkdaşlığı mühüm əhəmiyyət daşıyır.

### Köç karvanı Xocavəndə çatıb

Böyük Qayıdış prosesi çərçivəsində Xocavənd şəhərinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Xocavənd şəhərinə 33 ailə (142 nəfər) köçürülüb. Artıq sakinlərə açarlar da təqdim edilib. Bu köç də daxil olmaqla Xocavəndə ümumilikdə 234 ailənin (904 nəfər) daimi qayıdışı təmin edilib.

### Vəsiqələr qarşılıqlı tanınacaq

Azərbaycan Respublikası və Belarus arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması planlaşdırılır. Bununla bağlı qanun layihəsi Milli Məclisdə müzakirəyə çıxarılacaq. Saziş hər iki ölkədən olan sürücülər üçün yol hərəkətində iştirakı sadələşdirəcək.

### Ali Məhkəmədən yeni qərar

Ali Məhkəmə yaşayış sahəsindən istifadə hüququnun qeydiyyatı ilə bağlı vahid mövqe müəyyən edib. Qərara əsasən, bu hüquq dövlət reyestrində qeydiyyata alınmalıdır və bu, vətəndaşların hüquqlarının daha etibarlı qorunmasına xidmət edir.

### Təxliyə olunanların sayı artdı

İran İslam Resublikasından təxliyə olunanların sayı 3 297 nəfərə çatıb. Onlardan 572 nəfəri Azərbaycan vətəndaşıdır. Təxliyə müxtəlif ölkə vətəndaşlarını əhatə edir və proses təhlükəsiz şəkildə həyata keçirilib.

### Füzulidə 3 min iş yeri

Füzuli şəhərində 3 min yeni iş yeri yaradılıb. Bu barədə Prezidentin xüsusi nümayəndəliyi məlumat yayıb. Bildirilib ki, həyata keçirilən layihələr əhalinin məşğulluğunun artırılmasına və dayanıqlı inkişafın təmin olunmasına xidmət edir.

### Bakıda yollar yenilənir

Bakıda genişmiqyaslı yol təmir işləri aparılır. Ümumilikdə 42 ünvanda 151 min kvadratmetrdən çox yol sahəsi yenilənir. İşlər fasiləsiz davam etdirilir və qısa müddətdə yekunlaşdırılması planlaşdırılır.

### Şəxsi hesablara köçürmələr risklidir

Vergi orqanları sahibkarlıq gəlirlərinin şəxsi bank hesablarına köçürülməsinin vergi riski yaratdığını bildirib. Rəsmi məlumata görə, bu cür hallarda əməliyyatlar araşdırılır və sahibkarlıq fəaliyyəti müəyyən edilərsə, vergi öhdəliyi yaranır.

### Kommunal xidmətlər bazası yaradılacaq

Azərbaycanda kommunal xidmətlər üzrə vahid abonent bazası yaradılacaq. Məlumatların dəqiqliyinin artırılması üçün FİN və VÖEN əsaslı sistem tətbiq olunacaq.

# Dünyada gərginlik, Azərbaycanda sabitlik

## Ölkəmiz dünyanın ən təhlükəsiz və etibarlı dövlətləri sırasındadır

**Ötən həftə "Global Terrorism Index 2026"-nın açıqlanan hesabatında Azərbaycanın yenidən dünyanın ən təhlükəsiz ölkələri sırasında yer alması görülən tədbirlərin nə qədər uğurlu nəticə verdiyini növbəti dəfə təsdiqləmiş oldu. Üstəlik, ölkəmiz əvvəlki 90-cı mövqeyi ilə kifayətlənməyərək reytinqdə daha 3 pillə irəliləyib.**




Bu fakt xüsusilə diqqət çəkir, ona görə ki, hazırda dünyanın müxtəlif regionlarında qeyri-sabitlik dərinləşib, terror və təhlükəsizlik riskləri bir çox dövlətlər üçün əsas problemdir. Belə bir fonda Azərbaycanın sabitlik adası kimi qalması təbii olaraq maraq doğurur.

Onu da qeyd edək ki, Azərbaycanın yerləşdiyi coğrafiya da daim qaynayır. Regionda geosiyasi toqquşmalar, maraqların kəsişməsi və müxtəlif risklər həmişə olub, bu gün də var. Buna baxmayaraq, ölkə həm təhlükəsizlik, həm də iqtisadi inkişaf baxımından uğurlu model ortaya qoyur. Prezident İlham Əliyev tərəfindən dəfələrlə vurğulanan bir fikir var ki, inkişafın əsasında sabitlik dayanır, təhlükəsizlik olmadan iqtisadi yüksəliş, investisiya mühiti və sosial rifah da mümkün olmazdı. Yeri gəlmişkən, elə hesabatın özü də ölkələrə xarici investisiya yatırımları zamanı nəzərə alınan əsas mənbələrdən hesab olunur.

### Sabitlik gərgin əməyin nəticəsidir

Sənəddə Azərbaycanın terror hadisələri, girov halları, terrorçuluğa qarşı mübarizənin effektivliyi kimi parametrlər üzrə Cənubi Qafqaz ölkələrini qabaqlaması başqa bir reallığı göz önünə gətirir. Eyni coğrafiyada yerləşən dövlətlər arasında təhlükəsizlik göstəricilərinə görə Azərbaycanın liderliyi açıq şəkildə görünür. Bu, qonşu ölkələrin təhlükəsizliyə cavabdeh olan qurumlarının peşəkarlığını, operativliyini və müasir çağırışlara nə dərəcədə uyğun fəaliyyət qabiliyyətli olduqlarını ortaya qoyur. Başqa sözlə desək, real təhlükəsizlik mühiti yaradan Azərbaycanın polis və digər hüquq-mühafizə orqanlarının qonşularımızı öz peşəkarlığı ilə açıq-aşkar qabaqladıqları təsdiqlənir. Təbii ki, hər bir ölkədə təhlükəsizliyin qorunmasında polisin rolu xüsusi əhəmiyyət daşıyır. Çünki polisin işi hüquq pozuntularına reaksiya verməklə məhdudlaşmır, risklərin qarşısını əvvəlcədən alan güc kimi çıxış edir. İctimai asayişin təminatçısı, vətəndaş təhlükəsizliyini birbaşa təmin edən əsas qüvvə polisdir. Polis və digər təhlükəsizlik qurumları ölkə daxilində mümkün risklərin qarşısını vaxtında almaqla, terror təhdidlərini ilkin mərhələdə zərərsizləşdirməklə sabitliyi Azərbaycan vətəndaşlarının gündəlik həyatının bir hissəsinə çevirməyə nail olublar.

### Azərbaycan uğurlu antiterror nümunəsi yaradıb

Terrorla mübarizədən söz düşəndə daxili işlər orqanlarının da iştirak etdiyi Qarabağda həyata keçirilmiş antiterror tədbirlərini yada salmasaq, mövcud terrorsuz ölkə mənzərəsi tam aydın olmaz. Üç il əvvəl baş tutan bu əməliyyatlar regionda uzun müddət mövcud olmuş təhlükə ocaqlarını tam aradan qaldırıb. Qanunsuz silahlı qruplaşmalar zərərsizləşdirilib, separatizmə son qoyulub və bölgədə yeni reallıq formalaşıb. İşğaldan azad olunan şəhərlər bu gün artıq sabitliyi qorunan və təhlükəsiz yaşayış məkanları kimi xarakterizə olunur. Xankəndi də daxil olmaqla regionun bütün ərazilərində təhlükəsizlik səviyyəsi ölkənin digər şəhərləri ilə eyni müstəviyə gəlib ki, bu nəticənin əldə olunmasında Daxili Qoşunlar və polisin birgə əzmkar xidmətinin müstəsna yeri vardır. Yenidən qurulan həmin şəhərlərdə, artıq bütün dünya beynəlxalq tədbirlərin keçirildiyininin şahidi olur. Bərpa olunan infrastruktur və əhalinin mərhələli şəkildə qayıdışı göstərir ki, təhlükəsizlik artıq möhkəm təməllər üzərində dayanıb. Qarabağ risk, terror zonası olmaqdan çıxaraq ölkənin ümumi inkişaf, təhlükəsizlik mühitinə uğurla inteqrasiya olunub.

Şübhəsiz ki, qlobal miqyasda risklərin artdığı bir dövrdə Azərbaycanda daxili sabitliyin bu qədər həssaslıqla qorunması, eləcə də bunun beynəlxalq təhlükəsizlik reytinqlərində özünü davamlı irəliləmə ilə göstərməsi ölkənin etibarlı tərəfdaş və təhlükəsiz məkan kimi mövqeyini bir qədər də gücləndirir.

*R.Mehtiyev*

# Etimadın yolu şəffaflıqdan keçir

## İctimaiyyətlə olan açıq dialoq polisə etimadı gücləndirir

Yaşadığımız dövrdə informasiyaya əlçatanlıq xeyli asanlaşıb, məlumat axını artıq saniyələrlə ölçülür. İstənilən şəxs mobil cihazlar vasitəsilə xəbəri dərhal əldə edə bilir, hətta bəzən sosial media istifadəçiləri özləri xəbər "istehsalçıları" kimi çıxış edirlər.

Belə bir şəraitdə polis-media münasibətləri xüsusi əhəmiyyət qazanır. Cəmiyyət qarşısında hesabatlılıq prinsipinə uyğun olaraq, informasiya təminatı vətəndaşı düzgün və operativ məlumatlandırmaq şərti üzərində qurulub. Xüsusən, müasir texnologiyaların yaratdığı yeni risklərə qarşı mübarizədə maarifləndirmə fəaliyyətinin media resursları üzərindən aparılması geniş auditoriyaya xitab etmək imkanı yaradır.

İnformasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin qarşısının alınmasında mediada aparılan təbliğat işinin təsiri açıq şəkildə hiss olunur. Xüsusilə, kibertalama halları ilə bağlı göstəricilər bunu təsdiqləyir. Bu gün onlayn dələduzluq hallarının gündəlik sayı 10-20 arasında dəyişir, halbuki əvvəlki dövrlərdə bu rəqəm 50 civarında olub. Bu yarıdan çox azalmanı informasiya resursları üzərindən aparılan maarifləndirmənin real nəticəsi kimi də dəyərləndirə bilərik.

Ümumiyyətlə, Daxili İşlər Nazirliyi mediaya açıq mövqeyi ilə seçilən qurumlardandır. Hər bir müraciətə, hər bir sorğuya operativ reaksiya verilməsi və hər il jurnalistlər arasında keçirilən sorğularda media ilə açıq münasibətdə DİN-in adının çəkilməsi bu yanaşmanın əsas göstəricilərindəndir.

DİN-in Mətbuat Xidməti tərəfindən üç ay ərzində ümumilikdə 3794 informasiya paylaşılması da bu istiqamətdə aparılan işin miqyasını aydın göstərir. Nazirliyin ümumi izləyici sayı 650 mindən çox olan "Instagram", "Facebook", "Telegram", "YouTube", "TikTok" və "WhatsApp" kimi sosial şəbəkələr vasitəsilə gün ərzində, hətta saatbasaat ictimaiyyətin məlumatlandırılması təmin edilir. Üstəlik, rəsmi hesabların izləyici sayı ardıcıl şəkildə artır, paylaşımlar milyonlarla istifadəçi tərəfindən izlənilir və oxunur. Bu tendensiya həmin səhifələrin etibarlı informasiya mənbəyi kimi qəbul olunduğunu və geniş auditoriyanın diqqətini cəlb etdiyini açıq şəkildə göstərir.

Sosial media platformaları vətəndaşlar üçün polisə birbaşa müraciət imkanı da yaradıb. İstənilən şəxs müxtəlif mövzularda müraciət edərək kömək istəyə bilir. Bu ilin I rübü ərzində DİN-in sosial şəbəkə səhifələrinin mesaj bölməsinə 11054 müraciət daxil olub. Onlardan 961-i təşəkkür məktubu olmaqla, 3035-i qeydiyyata alınaraq aidiyyəti üzrə yönləndirilib.

Vətəndaş sosial medianın çevik imkanlarından istifadə edərək problemini çatdırır, polis isə operativ reaksiya ilə həll yolları təqdim edir. Bu qarşılıqlı əlaqə məmnunluğun artmasına səbəb olur. Daxil olan müraciətlərin bir hissəsinin təşəkkür xarakterli olması onu göstərir ki, polisin fəaliyyəti vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir.

Bu müraciətlərin hər biri polislə vətəndaş arasında qurulan birbaşa əlaqə deməkdir. Ənənəvi müraciət kanalları öz yerində qalmaqla, təkcə sosial media vasitəsilə yaradılan açıq platforma istənilən vətəndaşa maneəsiz şəkildə polisə müraciət etmək imkanı yaradır. Bu isə müasir dövrdə polis və cəmiyyət münasibətlərinin artıq yeni mərhələyə keçdiyini nümayiş etdirir.

# Məktublar məmnunluq ifadəsidir

## Etimad artır, təşəkkürlər çoxalır



Vətəndaşların polisə ünvanladıqları müraciətlərə operativ və həssas yanaşma məmnunluğu artırmaqla yanaşı, qarşılıqlı münasibətləri də möhkəmləndirir. Daxil olan təşəkkür məktubları da görülən işlərin real nəticəsini və cəmiyyət tərəfindən yüksək qiymətləndirildiyini aydın şəkildə nümayiş etdirir.

Vətəndaş Elvin Yunusov DİN-in "Instagram" səhifəsinə yazdığı mesajında üzləşdiyi problemlə bağlı müraciət etdiyini, polis əməkdaşlarının müraciətinə operativ şəkildə baxdığını yazır. O, müraciətinə həssas yanaşılmasına, görülmüş tədbirlərlə probleminin qısa müddətdə aradan qaldırılmasına və ona dəymiş maddi ziyanın tam ödətdirilməsində göstərilən köməkliyə görə Nəsimi RPİ-nin 19-cu Polis Şöbəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Vətəndaşlar Hümmət Xaliqov, Tural Rəhimov, Kamal Əhmədpaşayev, Elgün Bağırov, Tariyel Ağasiyev, Ayaz Beydullayev və Bəhruz Əlimirzəyev DİN rəhbərliyinə ünvanladıqları təşəkkür məktublarında ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasında, hüquqazidd əməllərin qarşısının alınmasında, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə xidməti vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə görə Azərbaycan polisinə minnətdarlıqlarını bildirirlər.

Quba rayon sakini Tələt Cəbrayılov rayon ərazisində olarkən içərisində bank kartlarının olduğu pulqabını itirdiyini və müraciətindən sonra tezliklə itən əşyasının polis tərəfindən tapılaraq təhvil verilməsini bildirir. O, vətəndaş müraciətinə həssas yanaşılmasına görə Azərbaycan polisinə və Quba RPŞ-nin əməkdaşlarına minnətdarlığını bildirir.

Vətəndaş Elvin Abbasov DİN-in "Instagram" səhifəsinə yazdığı mesajında yol-nəqliyyat hadisəsi ilə bağlı polisə müraciət etdiyini bildirir, müraciətinə diqqətlə yanaşılmasına və keçirilən operativ tədbirlərə görə Pirallahı RPİ-nin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşlarına minnətdarlığını ifadə edir.

# "Anamı yurduna qaytaracam..."

## Daxili Qoşunların əsgəri sözünü şəhadəti ilə möhürləyib



44 günlük Vətən müharibəsində böyük hərbi zəfərimiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu, öz həyatını Vətənə tərəddüd etmədən qurban verən qeyrətli və ləyaqətli oğulların fədakarlığı sayəsində qazanılıb. Adı tariximizdə, xatirəsi qəlblərimizdə yaşayacaq belə igid oğullardan biri də DİN Daxili Qoşunlarının əsgəri Abasov Ayaz Nizami oğludur.

O, 1998-ci il dekabrın 20-də Cəlilabad rayonunun Bəcirəvan kəndində doğulub, həmin kənddə tam orta məktəbdə təhsil alıb. Daxili Qoşunların sıralarında həqiqi hərbi xidmətini başa vurduqdan sonra öz arzusu ilə müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Həyatının bu vacib qərarı heç də təsadüfi deyildi. O, hələ məktəbli olduğu vaxtdan hərbçi peşəsinə rəğbət bəsləyib. Ailədə gələcək peşə seçimi haqqında danışanda söyləyib ki, mütləq hərbçi olacaq, vaxtı ilə yurdundan didərgin düşmüş anasını düşmən əsarətində qalmış evinə qaytaracaq... Şəhidimizin anası Cəbrayıl rayonunun Çaxırlı kəndində anadan olub. Onun doğma kəndi Birinci Qarabağ müharibəsi zamanı işğal edilib, öz yurdundan məcburi köçkün düşüb.

Ayaz xidmət keçdiyi hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı, sonra isə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun heyət nəfəri vəzifələrinə təyin edilərək komandanlığın etimadını doğruldub. Silahdaşlarının hörmətini qazanıb. Döyüş və mənəvi-psixoloji hazırlığında, funksional vəzifələrinin icrasında göstərdiyi əzmkarlıq öz peşəsinə necə can yandırmasının nümunəsi olaraq silahdaşları tərəfindən bu gün də unudulmayıb. Məzuniyyət vaxtlarında kəndə gələrkən doğmaları, dostları ilə söhbətlərində hərbçi peşəsi ilə qürur duyduğunu, hərbi xidmətin hər bir gənc üçün həyat məktəbi olduğunu vurğulayarmış.

Vətən müharibəsinin və Qarabağ bölgəsində keçirilən antiterror tədbirlərinin iştirakçısı olmuş "N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri mayor Ələsgər Muxtarovun sözlərinə görə, müharibə zamanı ilk gündən Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları ilə birlikdə döyüş əməliyyatlarına qatılıblar. Dəstənin şəxsi heyəti qarşısına qoyulan döyüş tapşırıqlarını mətinliklə yerinə yetirib. Ümumilikdə, dəstənin 6 hərbi qulluqçusu müharibədə şəhidlik zirvəsinə ucalıb. Onlardan biri də Ayazdır. O, Cəbrayıl rayonu ərazisində döyüşüb. Ön cəbhədə erməni işğalçılarının uzun illər möhkəmləndirdikləri 1-ci və 2-ci müdafiə sədlərinin yarılması, Böyük Mərcanlı kəndi istiqamətində düşmən mövqelərinin darmadağın edilməsində silahdaşları ilə birgə igidlik göstərib. Uğurlu döyüşlər nəticəsində təcavüzkarın xeyli sayda canlı qüvvəsi tələfata uğradılıb, zirehli texnikaları, artilleriya vasitələri məhv edilib. 2020-ci il oktyabrın 3-də göstərilən ərazidə qrup komandiri kapitan Türkay Hüseynli, onun tabeliyində vuruşmuş çavuş Elvin Məmmədov və əsgər Ayaz Abasov ağır yaralanaraq şəhadətə yüksəlib.

Vətən müharibəsi qaziləri, ehtiyatda olan gizir Sakin Səfərov və ehtiyatda olan çavuş Rəşad Poladov Ayazla birlikdə xidmət ediblər və döyüş yolu keçiblər. Onların sözlərinə görə, Ayaz məsuliyyətli, hər bir vəziyyətdə çevik fəaliyyət göstərməyə hazırlıqlı, qətiyyətli, ona təhkim olunan silahdan sərrast atəş açan, hərbi biliklərinin artırılmasına diqqət yetirən, tabeçilik münasibətlərinə ciddi riayət edən, xidmətdə və təlimdə yoldaşlarına köməyini əsirgəməyən hərbi qulluqçu olub. O, xüsusi təyinatlı adını şərəflə daşıyıb.

Şəhidimiz silahdaşlarının xatirələrində hərbi anda sadiq, qorxmaz, fədakar döyüşçü kimi qalıb. Deyirmiş ki, son damla qanına kimi döyüşəcək, torpaqlarımızı yağı tapdağından azad edəcək, anasını didərgin düşdüyü yurduna qovuşduracaq. Düşmənlə üzbəüz döyüşdə sinəsindən aldığı güllə yaraları onun həyatına son qoyub.

Şəhid xüsusi təyinatlı 2020-ci il oktyabrın 7-də Bəcirəvan kəndində torpağa tapşırılıb.

Azərbaycan Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə əsgər A.Abasov ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov*

# Ekspertiza qurumları əməkdaşlıq edəcək

## Türk dövlətlərinin yeni qurumu təsis olunub



Aprelin 3-də Bakı şəhərində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin məhkəmə ekspertizası qurumları arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə Türk Məhkəmə Ekspertizası Şəbəkəsinin təsis iclası keçirilib.

Tədbirdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın aidiyyəti qurumlarının rəhbər və nümayəndələri iştirak ediblər.

Azərbaycan DİN-in Kriminalistik Tədqiqatlar İdarəsi də iclasda təmsil olunub.

İclas çərçivəsində Şəbəkənin yaradılmasına dair Anlaşma Memorandumu imzalanıb. Həmçinin iştirakçı ölkələr arasında qabaqcıl təcrübənin paylaşılması, birgə elmi tədqiqatların aparılması, təlim proqramlarının təşkili və texniki əməkdaşlıq imkanları müzakirə olunub.

# Narkotik qaçaqmalçıları tutulub

## Ölkəyə gətirilən narkotikin qarşısı alınıb



DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən qaçaqmalçılıq yolu ilə ölkəyə narkotik vasitələr gətirən bir qrup şəxsin cinayət əməlləri ifşa edilib. Astara və Qaradağ rayonlarında keçirilən tədbirlər zamanı əvvəllər qəsdən adam öldürmə, həmçinin oğurluq cinayətlərinə görə məhkum olunan Əli Məmmədov, Rəvan Hüseynov və İlkin Əhmədov saxlanılıblar. Onlardan 43 kq 300 qram tərkibinə zərərli maddələr əlavə edilmiş marixuana aşkarlanıb.

Hər üç şəxs şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşları ilə cinayət əlaqəsinə girərək narkotikləri sərhədyanı rayonlardan qazanc əldə etmək və müxtəlif ünvanlara yerləşdirmək məqsədi ilə əldə etdiklərini bildiriblər.

Faktla bağlı araşdırmalar davam etdirilir.

# Yeniyetmələri birgə qoruyaq

## Polisin bu sahədə fəaliyyətinə dəstək cəmiyyətin ümumi vəzifəsidir

**Yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması cəmiyyətin gələcəyinə qoyulan ən dəyərli sərmayədir. Uşaqların təhlükəsiz mühitdə böyüməsi, keyfiyyətli təhsil alması, həmçinin zorakılıqdan uzaq yaşaması onların əsas hüquqlarıdır və bu hüquqların təmin olunması hər birimizin borcudur.**

Bu sahədə polis orqanları mühüm rol oynayır. Məişət zorakılığı, uşaq əməyinin istismarı, erkən nikah kimi halların qarşısının alınması üçün davamlı profilaktik tədbirlər həyata keçirilir. Məktəblərdə keçirilən maarifləndirici görüşlər, videoçarxlar, sosial kampaniyalar və digər tədbirlər uşaq və yeniyetmələrin öz hüquqlarını tanımasına kömək edir. Valideynlərlə aparılan söhbətlər və ictimai kampaniyalar uşaqların hüquqları barədə məlumatlılığın artırılmasına xidmət edir.

Yeniyetmələri hüquqazidd əməllərdən, müasir dövrün təhdidlərindən qorumağa çalışan polis maarifləndirmə tədbirlərinə üstünlük verməklə mühüm profilaktik işlər aparır. Nəticədə yeniyetmələr cinayət əməllərindən çəkinir və yekunda onlar ictimai təhlükəsizliyin bərqərar olmasına öz töhfələrini verirlər. Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili həyata keçirən inspektorların bu məsələdə fəaliyyəti xüsusi önəm daşıyır. Nəticə göz qabağındadır. Təkcə bir faktı səsləndirmək kifayətdir ki, Azərbaycanda yeniyetmələr tərəfindən törədilən hüquqazidd əməllərin ümumi statistikada göstəricisi 1 faiz civarında dəyişir. Xatırlatmaq yerinə düşər ki, dünyanın başqa ölkələrində bu göstərici böyük faiz nisbəti ilə ölçülür. Azərbaycanda maarifləndirmə işinin geniş vüsət almasının real nəticəsi məhz budur. Əlbəttə, cinayətsiz cəmiyyət olmur. Bəzən valideyn nəzarətsizliyi və ya diqqətsizliyindən kriminal davranışları təqlid etmək istəyən, özünə kriminal "macəra" axtaran gənclərə də təsadüf olunur. Belə hüquq pozuntuları baş verdikdə isə operativ müdaxilə edilərək daha ağır nəticələrin qarşısı vaxtında alınır, bunun üçün aidiyyəti dövlət qurumları və ictimai təşkilatlarla qarşılıqlı əməkdaşlıq edilir. Güclü gələcəyin sağlam gəncliklə qurula biləcəyini nəzərə alan polisin bu genişmiqyaslı tədbirləri mütləq ki, cəmiyyət tərəfindən də güclü şəkildə dəstəklənməlidir. Çünki uşaqların xoşbəxtliyi, onların hüquqlarının qorunması və nəhayət, yetkinlik yaşına çatmayanların profilaktikası ortaq məsuliyyətdir. Ailələrin də bu həssas məsələdə polisin yanında olması və etibarlı gələcəyin qurulmasında iştirak etməsi ümumi işə yalnız fayda verər.

*L.Babayeva*

# Cibgirlik cinayəti necə baş verir?

## Bu əməllərə qarşı nəzarət-profilaktik tədbirlər gücləndirilir

**Son dövrlər insanların sıx toplaşdığı məkanlarda cibgirlik hallarının baş verdiyi barədə polisə müraciətlər daxil olmaqdadır. Bəs cibgirlik yolu ilə oğurluq əməlləri dedikdə nələr nəzərdə tutulur? Cibgirlik şəxsin xəbəri olmadan onun üzərindən şəxsi əşyalarının və pul vəsaitlərinin gizli şəkildə oğurlanmasıdır. Bu növ oğurluq adətən zor tətbiq edilmədən, diqqətin yayındırılması və ya insan izdihamından istifadə olunmaqla törədilir. Cibgirlər çox vaxt müxtəlif üsullara əl atırlar. Məsələn, onlar süni qarışıqlıq yaratmaq və kömək təklifi ilə insanlara yaxınlaşmaqla ani hərəkətlə onların şəxsi əşyalarını hiss olunmadan ələ keçirirlər.**

Sosial şəbəkələrdə paylaşılan hadisələr və polis orqanlarına daxil olan müraciətlərdən görünür ki, vətəndaşlar bu hallarla xüsusilə ictimai nəqliyyatda, bazarlarda və iri ticarət mərkəzlərində üzləşirlər.

Müşahidələr göstərir ki, alış-veriş zamanı bazar, eləcə də yarmarkalar, kütləvi tədbirlər və insanların sıx olduğu məkanlar cibgirlik üçün əlverişli mühitdir. Belə halların qarşısının alınması məqsədilə vətəndaşlara bir sıra sadə, lakin effektiv qaydalara əməl etmələri tövsiyə edilir. Belə ki, şəxsi əşyalar, xüsusilə mobil telefon, pul kisəsi və sənədlər daim nəzarətdə saxlanılmalı, onlar asan ələ keçirilə bilən arxa ciblərə qoyulmamalı, çantalar isə mümkün qədər bədənin ön hissəsində daşınmalıdır.

Eyni zamanda ictimai nəqliyyatda diqqətli olmaq və şübhəli hallarla qarşılaşdıqda dərhal polisə məlumat verilməlidir.

Cibgirlik hallarının qarşısının alınması məqsədilə polis əməkdaşları tərəfindən paytaxt və regionlarda mütəmadi olaraq nəzarət-profilaktik tədbirlər həyata keçirilir.

İnsanların sıx olduğu ərazilərdə post-patrul naryadlarının sayı artırılır, texniki vasitələrin imkanları və kameralar vasitəsilə daim müşahidələr aparılır.

Şübhəli şəxslər operativ şəkildə müəyyən edilərək saxlanılır, görülən tədbirlər nəticəsində oğurlanmış əşyaların tapılması təmin olunur.

Bununla yanaşı cibgirlik halları ilə mübarizədə maarifləndirmə tədbirlərinin də xüsusi əhəmiyyəti var. Vətəndaşlara daim ehtiyat tədbirləri barədə tövsiyələr verilir.



Aparılan nəzarət-profilaktik və əməliyyat tədbirləri insanların məlumatlılıq səviyyəsinin artırılmasını, riskləri azalmasını və ictimai təhlükəsizliyin təmin olunmasını hədəfləyən addımlardır.

*F.Məmmədova*

# İbrətlik hadisə

## Sürücü səhlənkarlığı ölümlə nəticələnib

Atasına məxsus avtomobildə nəzarətsiz qalan iki azyaşlı nəqliyyat vasitəsini hərəkətə gətirib. Belə ki, Xətai rayon sakini İlham Qasımov "VAZ" markalı avtomobili yaşadığı evin qarşısında, sərt enişli ərazidə, qapıları açıq vəziyyətdə saxlayaraq oradan uzaqlaşıb. Bu vaxt onun 7 və 6 yaşlı övladları avtomobilə əyləşərək sürətlər qutusuna müdaxilə ediblər.

Nəticədə avtomobil hərəkətə gəlib. Uşaqlar nəqliyyat vasitəsindən düşməyə imkan tapsalar da, eniş istiqamətində sürət yığan avtomobil yolda olan iki qadını vurub. Hadisə zamanı piyadalardan biri xəsarət alıb, digəri isə həyatını itirib.

Bu hadisə göstərir ki, nəqliyyat vasitəsinin saxlanılması zamanı təhlükəsizlik tələblərinə əməl olunmaması ağır nəticələrə səbəb ola bilər. "Yol hərəkəti haqqında" Qanunun tələblərinə uyğun olaraq, enişli yolda saxlanılan avtomobilin duracaq tormoz sistemi qoşulmalı, təkərlər səki yol çiyni istiqamətində çevrilməli, nəqliyyat vasitəsi isə qapıları kilidli vəziyyətdə tərk edilməlidir.

Əgər həmin avtomobildə bu sadə, lakin həyati əhəmiyyət daşıyan təhlükəsizlik tədbirləri görülmüş olsaydı, bu gün iki ailə ağır faciə ilə üz-üzə qalmazdı.

Baş Dövlət Yol Polisi İdarəsi diqqətə çatdırır ki, nəqliyyat vasitəsinin saxlanılması zamanı təhlükəsizlik tələblərinə əməl olunmaması ağır nəticələrə səbəb ola bilər. Bu baxımdan, sürücülərdən məsuliyyətli davranmaları və qanunvericiliyin tələblərinə ciddi riayət etmələri tələb olunur.

# Dələduzluğun yeni üsulları

## Vətəndaşlar nələrə diqqət etməlidir?

**Müasir dövrdə texnologiyanın sürətli inkişafı ilə yanaşı, dələduzluq üsulları da getdikcə daha mürəkkəb və təhlükəli xarakter alır. Əvvəllər daha sadə vasitələrlə həyata keçirilən fırıldaqlar indi sosial şəbəkələr, mobil tətbiqlər və onlayn ödəniş sistemləri vasitəsilə həyata keçirilir. Bu isə vətəndaşların daha diqqətli və məlumatlı olmasını zəruri edir.**



Dələduzlar insanların etibarından, məlumatsızlığından və bəzən də psixoloji vəziyyətindən istifadə edərək onları maddi ziyana salmağa çalışırlar. Eyni zamanda, müasir dələduzların "peşəkarlıq" səviyyəsinin artdığı da müşahidə olunur. Fırıldaqçılar özlərini inandırıcı təqdim etmək üçün real qurumların loqolarından, rəsmi yazışma üslubundan və hətta süni intellekt texnologiyalarından belə istifadə edirlər. Bu da adi vətəndaş üçün həqiqi ilə saxtanı ayırd etməyi çətinləşdirir. Buna görə də maarifləndirmə və diqqətli davranış bu sahədə ən təsirli müdafiə vasitələrindən biri hesab olunur.

### Sosial şəbəkələrdə saxta profillər və aldadıcı kampaniyalar

Son illərdə ən geniş yayılmış dələduzluq üsullarından biri sosial şəbəkələrdə yaradılan saxta profillər vasitəsilə həyata keçirilir. Bu profillər rəsmi qurumların adından çıxış edərək müxtəlif kampaniyalar, uduşlar və ya yardım aksiyaları adı altında vətəndaşlardan şəxsi məlumatlar və ya pul tələb edirlər. Vətəndaşlar bu kimi hallarda profilin həqiqiliyini yoxlamalı, şübhəli linklərə daxil olmamalı və şəxsi məlumatlarını paylaşmamalıdırlar. Bundan əlavə, belə saxta profillər tez-tez emosional təsir vasitələrindən istifadə edirlər. Məsələn, "təcili yardım", "məhdud sayda uduş" və ya "son şans" kimi ifadələrlə insanlarda tələskənlik hissi yaradırlar. Bu isə insanların düşünmədən qərar verməsinə səbəb olur. Ona görə də istifadəçilər yalnız rəsmi təsdiq nişanı olan səhifələrə etibar etməli və şübhəli hallarla qarşılaşdıqda dərhal müvafiq qurumlara məlumat verməlidirlər.

### Telefon zəngləri və "bank əməkdaşı"nın tələləri

Digər geniş yayılmış üsullardan biri isə özünü bank əməkdaşı kimi təqdim edən şəxslərin vətəndaşlara zəng etməsidir. Bu zaman dələduzlar guya kart hesabında şübhəli əməliyyat olduğunu bildirərək kart məlumatlarını, SMS kodlarını və ya digər məxfi informasiyaları tələb edirlər. Belə hallarda vətəndaşlar dərhal zəngi sonlandırmalı və bankla əlaqə saxlamalıdırlar. Heç bir halda kartın PIN kodu, CVV kodu və ya SMS təsdiq kodu üçüncü şəxslərə verilməməlidir. Son dövrlərdə bu tip zənglər daha da inandırıcı olmaq üçün müxtəlif texniki vasitələrlə həyata keçirilir. Məsələn, zəng edən nömrə bankın rəsmi nömrəsinə bənzədilə və ya hətta eyni kimi göstərilə bilər. Bu isə vətəndaşlarda əlavə inam yaradır. Buna görə də vətəndaşlar yalnız rəsmi tətbiqlər və ya bankın öz əlaqə vasitələri ilə məlumat mübadiləsi aparmalıdırlar.

### Onlayn alış-veriş zamanı diqqətli olun!

İnternet üzərindən alış-veriş edərkən də dələduzluq halları ilə tez-tez rastlaşmaq mümkündür. Saxta internet saytları və ya sosial şəbəkə səhifələri vasitəsilə ucuz qiymətə məhsul təklif edən şəxslər əvvəlcədən ödəniş tələb edir, lakin sonradan ya məhsulu göndərmir, ya da göndərilən məhsul keyfiyyətsiz olur. Vətəndaşlar alış-veriş zamanı yalnız etibarlı və tanınmış platformalara üstünlük verməli, satıcının reytinqini və rəylərini yoxlamalıdırlar. Bununla yanaşı, saxta saytlar çox vaxt dizayn baxımından real saytlara bənzədilir və istifadəçiləri çaşdırır. Kiçik fərqlər, məsələn, domen adında əlavə hərf və ya simvol diqqətdən qaça bilər. Həmçinin bəzi elanlarda real bazar qiymətindən xeyli aşağı qiymətlər təklif olunur ki, bu da şübhə doğurmalıdır. Təhlükəsizlik baxımından, ödəniş etməzdən əvvəl saytın etibarlılığı araşdırılmalı, mümkün olduqda isə təhlükəsiz ödəniş sistemlərindən istifadə edilməlidir.

### Şəxsi məlumatların qorunması əsas təhlükəsizlik qaydasıdır

Dələduzluğun qarşısını almaqda ən vacib amillərdən biri şəxsi məlumatların qorunmasıdır. Şəxsiyyət vəsiqəsi məlumatları, bank kartı detalları, şifrələr və digər məxfi məlumatlar heç bir halda üçüncü şəxslərlə paylaşılmamalıdır. Eyni zamanda, güclü və mürəkkəb şifrələrdən istifadə etmək, onları mütəmadi dəyişmək və iki faktorlu identifikasiya sistemlərindən yararlanmaq tövsiyə olunur. Vətəndaşlar diqqətli olduqda və təhlükəsizlik qaydalarına əməl etdikdə dələduzların qurbanına çevrilmə ehtimalı əhəmiyyətli dərəcədə azalır. Bundan başqa, şəxsi məlumatların qorunması yalnız fərdi məsuliyyət deyil, həm də ümumi təhlükəsizlik mədəniyyətinin bir hissəsidir. İnsanlar istifadə etdikləri tətbiqlərin məxfilik siyasəti ilə tanış olmalı, şübhəli proqramları cihazlarına yükləməkdən çəkinməlidirlər. Bu kimi sadə, lakin vacib qaydalara əməl etməklə vətəndaşlar həm özlərini, həm də maliyyə və şəxsi məlumatlarını qorumuş olurlar.

*Aytən Tahirova*

# Heç bir cinayət gizli qalmır

## Tarixə düşən kriminal hadisələrin açılma hekayələri




Cinayət tarixində elə hadisələr var ki, onlar yalnız törədildiyi anla deyil, həm də sonradan üstünün necə açıldığı ilə yadda qalır. Bu cür istintaq işləri polis orqanlarının peşəkarlığını, səbrini və müasir üsullardan istifadə bacarığını nümayiş etdirir. Bəzi cinayətlər illərlə araşdırıldıqdan sonra açılır, bəziləri isə mürəkkəb planlara baxmayaraq qısa müddətdə ifşa olunur. Bu kimi hadisələr cəmiyyətə bir mesaj verir: heç bir cinayət diqqətdən kənarda qalmır və gec-tez onun üstü açılır.

### "Zodiak Qatil" işi və istintaqın yeni mərhələsi

ABŞ tarixində ən çox müzakirə olunan cinayət işlərindən biri "Zodiak Qatil" kimi tanınan şəxsə aiddir. O, 1960–1970-ci illərdə bir neçə qətl törətmiş, əsasən, gənc cütlükləri hədəf seçmişdi. Cinayətkar hadisə yerlərində iz buraxmamağa çalışır, bəzi hallarda isə qurbanlarla əvvəlcədən əlaqə qururdu. O, həmçinin polisə və mediaya şifrəli məktublar göndərərək özünü tanıtmağa və diqqət çəkməyə çalışırdı. Bu məktublarda müxtəlif kodlar və simvollar istifadə olunurdu, onlardan bəziləri yalnız illər sonra deşifrə edildi. "Zodiak" imzası ilə göndərilən bu məktublar istintaqın istiqamətini müəyyənləşdirən əsas sübutlardan biri olmuşdur.

### "Qızıl Ştatı Qatili" – DNT ilə müəyyən edilən cinayətkar

"Qızıl Ştatı Qatili" kimi tanınan şəxs 1970–1980-ci illərdə Kaliforniyada çoxsaylı cinayətlər törətmişdi. O, əsasən, gecə saatlarında evlərə daxil olur, qurbanlarını izləyir və əvvəlcədən planlaşdırılmış şəkildə hərəkət edirdi. Onun fəaliyyəti uzun müddət müxtəlif cinayət seriyaları kimi araşdırılsa da, sonradan eyni şəxs tərəfindən törədildiyi müəyyən olundu. 2018-ci ildə aparılan DNT analizləri nəticəsində onun kimliyi müəyyən edildi. Cinayətkarın qohumlarının genetik məlumatları ilə uyğunluq tapılması istintaqda həlledici rol oynadı.

### "Unabomber" işi – diqqətli analiz nəticə verdi

"Unabomber" kimi tanınan Ted Kaçinski uzun illər ərzində poçt vasitəsilə partlayıcı qurğular göndərərək müxtəlif şəxslərə hücumlar təşkil etmişdi. Onun hədəfləri, əsasən, alimlər və texnologiya ilə bağlı sahələrdə çalışan şəxslər idi. Bu hücumlar nəticəsində bir neçə nəfər həyatını itirmiş, bir çox insan isə xəsarət almışdı. Cinayətkarın yazdığı uzun manifest mətbuatda dərc olunduqdan sonra onun dil üslubu diqqət çəkdi. Yazıda istifadə olunan ifadələr və fikirlər onun şəxsiyyətinin müəyyən edilməsində mühüm rol oynadı. Bu istiqamətdə aparılan araşdırmalar nəticəsində onun kimliyi müəyyən edilərək saxlanıldı.

### "BTK Qatil" – texniki səhv və ifşa

Özünə "BTK" adı vermiş (sarımaq, işgəncə vermək və qətl etmək) Denis Rader uzun illər ərzində müxtəlif qətllər törətmiş və polisə məktublar göndərmişdi. O, cinayətləri barədə detallı məlumatlar verərək istintaqı çaşdırmağa çalışırdı. 2005-ci ildə o, məlumat daşıyıcısı vasitəsilə göndərdiyi faylda texniki iz buraxdı. Disket üzərində aparılan analiz nəticəsində onun adı və işlədiyi yer müəyyən edildi. Bu məlumatlar əsasında cinayətkar qısa müddətdə saxlanıldı.

### "Yaşıl Çay Qatili" – uzunmüddətli istintaqın nəticəsi

"Yaşıl Çay Qatili" kimi tanınan Qeri Ridqvey 1982-1988-ci illər ərzində onlarla qadını ABŞ-ın Vaşinqton ştatında axan Yaşıl Çayın ətrafında qətlə yetirmişdi. 2001-ci ildə aparılan DNT analizləri nəticəsində onun törətdiyi cinayətlər sübuta yetirildi. Daha sonra o, istintaqla əməkdaşlıq edərək törətdiyi digər cinayətlər barədə də məlumat verdi. Bu kimi istintaq işlərini birləşdirən əsas cəhət onların mürəkkəbliyi və açılması üçün sərf olunan böyük zəhmətdir. Hər bir hadisədə fərqli üsullar tətbiq olunsa da, nəticə etibarilə istintaqın ardıcıllığı və toplanan sübutların düzgün qiymətləndirilməsi əsas rol oynayır. Beləliklə, tarixə düşən istintaq işləri göstərir ki, ən mürəkkəb cinayətlər belə zamanla açılır və polis orqanlarının peşəkar fəaliyyəti nəticəsində cinayətkarlar məsuliyyətə cəlb olunurlar.

*Aytən Tahirova*

# Polislər çempionata hazırlaşırlar

## Ümummilli liderin xatirəsinə həsr olunacaq çempionat mayda keçiriləcək



Ötən həftə ölkənin 14 rayonunda polis əməkdaşları arasında əlbəyaxa döyüş və silahsız özünü müdafiə üzrə yarışlar təşkil olunub. Yarışlar ümummilli lider Heydər Əliyevin 103 illik xatirəsinə həsr edilib və qarşıdakı zona mərhələsi ilə respublika çempionatına hazırlıq məqsədi daşıyıb.

Tərtər, Ağstafa, Hacıqabul, Qobustan, Tovuz, Şirvan, Bərdə, Qazax, Daşkəsən, Gədəbəy, Quba, Şabran, Şamaxı və İsmayıllı rayonlarını əhatə edən yarışlarda ümumilikdə mindən artıq polis əməkdaşı iştirak edib. Seçim mərhələsində idmançılar 6 çəki dərəcəsində mübarizə apararaq qalibləri müəyyənləşdiriblər.

Nəticələrə əsasən, 250 polis əməkdaşı zona yarışlarında iştirak etmək hüququ qazanıb.

Qeyd edək ki, hər il may ayında keçirilən zona yarışları və ardınca baş tutan respublika çempionatı geniş rəqabət və yüksək səviyyəli mübarizə ilə yadda qalır.

# Polisə məlumat verərkən diqqət edilməli məqamlar

## Dəqiq məlumat və operativ davranış həyat xilas edir

Cəmiyyətin təhlükəsizliyinin təmin olunmasında hər bir vətəndaşın üzərinə müəyyən məsuliyyət düşür. Xüsusilə fövqəladə hallarda düzgün davranış, operativ qərarvermə və aidiyyəti qurumlarla düzgün ünsiyyət qurmaq həyati əhəmiyyət daşıyır. Belə vəziyyətlərdə atılan hər bir addım hadisənin gedişatına təsir göstərə, hətta insan həyatını xilas edə bilər. Buna görə də vətəndaşların fövqəladə hallarda necə davranmalı olduqlarını bilmələri olduqca vacibdir.

Fövqəladə vəziyyətlərdə düzgün və vaxtında edilən müraciət hadisənin nəticəsinə birbaşa təsir göstərir. Belə hallarda vətəndaşların həyəcanlanmadan soyuqqanlı şəkildə davranması olduqca vacibdir. Polisə müraciət edərkən ilk növbədə hadisənin dəqiq ünvanını bildirmək əsas şərtdir. Ünvan nə qədər aydın və konkret göstərilərsə, polisin hadisə yerinə çatması bir o qədər sürətli olar.

Zəng zamanı baş verən hadisənin mahiyyəti qısa və aydın şəkildə izah olunmalıdır. Artıq və qarışıq məlumat vermək əvəzinə əsas faktlara diqqət yetirmək tövsiyə edilir. Hadisədə iştirak edən şəxslərin sayı, görünüşü və davranışları barədə məlumatlar da olduqca önəmlidir. Vətəndaşlar bilməlidir ki, yalan, eləcə də şişirdilmiş məlumat vermək hüquqi məsuliyyət yaradır və real köməyə ehtiyacı olan şəxslərin çağırışına yetişməkdə əlavə vaxt itirməsinə səbəb ola bilər. Zəng zamanı dispetçerin suallarını diqqətlə dinləmək və onlara dəqiq cavab vermək lazımdır. Bu suallar hadisənin daha düzgün qiymətləndirilməsi üçün verilir.

Fövqəladə vəziyyətdə öz təhlükəsizliyini təmin etmək də əsas prioritet olmalıdır. Hadisə yerində qalmaq təhlükəlidirsə, təhlükəsiz əraziyə çəkilmək və polis əməkdaşlarını gözləmək daha məqsədəuyğundur. Eyni zamanda, hadisəyə gərəksiz müdaxilə bəzən vəziyyəti daha da gərginləşdirə bilər. Əgər hadisəni videoya çəkmək və ya fotoşəkil çəkmək mümkündürsə, bu materiallar sonradan araşdırma üçün faydalı ola bilər. Lakin bu zaman şəxsi təhlükəsizlik qaydalarına riayət olunmalıdır.

Polis əməkdaşları hadisə yerinə çatdıqdan sonra onların göstərişlərinə əməl etmək vacibdir. Unutmaq olmaz ki, düzgün müraciət yalnız hadisənin tez həllinə deyil, həm də insanların həyat və sağlamlığının qorunmasına xidmət edir. Hər bir vətəndaş məsuliyyətli davranaraq polis orqanları ilə əməkdaşlıq etməlidir. Bu, cəmiyyətin ümumi təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

*A.Tahirova*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik